**“Qədir Xum” ailəvi istirahət mərkəzində keçirilmiş monitorinqə dair məlumat**

**(6 noyabr 2025)**

İctimai iaşə müəssisələrində və ailəvi istirahət mərkəzlərində vəhşi heyvan və quşların saxlanılması, nümayiş etdirilməsi hallarında yarana biləcək təhlükəli xəstəliklərin qarşısının alınması və biotəhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə Hacıqabul rayonu, Bakı-Qazax avtomobil yolu 105-ci kilometr ünvanında yerləşən “Qədir Xum” ailəvi istirahət mərkəzində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları epizootoloji komissiyanın üzvləri ilə birgə monitorinq keçirib.

Monitorinq zamanı “Zoonoz xəstəliklərin başvermə riskinin aradan qaldırılması üçün baytarlıq nəzarətinin gücləndirilməsi haqqında” müvafiq Qərara uyğun olaraq, vəhşi quşlara baytar həkim tərəfindən kliniki baxış keçirilib və istirahət mərkəzindən daşınaraq aidiyyəti üzrə təhvil verilib. İstirahət mərkəzinin ərazisində dezinfeksiya, dezinseksiya və deratizasiya tədbirləri görülüb.